# Torpağı qorumalı, düşməni qovmalı

**Ötən əsrin 80-ci illərinin sonunda bədnam qonşumuz olan Ermənistanın Azərbaycanın ayrılmaz hissəsi olan Dağlıq Qarabağa hərbi təcavüzü ilə başlamış müharibə hələ də davam edir. Azərbaycanın 20 faiz torpaqları işğal altındadır. Atəşkəs elan edilsə də, hələ də cəbhə xəttindən güllə səsləri eşidilir, günahsız insanların qanı tökülür.**

**Bu gün münaqişənin sülh yolu ilə həlli istiqamətində danışıqlar davam etdirilir... Azərbaycan Silahlı Qüvvələrinin əsgər və zabit heyəti Ali Baş Komandan, Prezident İlham Əliyevin istənilən əmrini yerinə yetirməyə hazırdır.**

Koroğlu, Babək, Cavanşir, Nəbi babamızın, Tomris, Sara xatun, Həcər nənəmizin ruhu bizi intiqama, düşməndən qisas almağa səsləyir, müqəddəs torpaqlarımızın hər qarışını erməni təcavüzündən qorumağa, qarı düşmənin başını öz yuvasında əzməyə çağırır.

Vətən torpağının hər qarışı bizim üçün əziz və doğmadır. "Torpağı qorumalı, düşməni qovmalı". İndi hamının fikri, məramı, məqsədi budur. Sülhlə, danışıqla həyata keçməyən fikri silahla, döyüşlə həyata keçirməliyik! Hamı Milli Orduya, əsgərlərə arxa, dayaq, dəstək olmalıdır.

Adəti üzrə Qaymaqlı kənd Mədəniyyət evinin və kitabxananın işçiləri Novruz bayramı günündə sərhədlərimizin keşiyini çəkən Milli Ordunun əsgər və zabit heyətinin görüşünə getmişdir. Mədəniyyət işçilərinin "Daşdıçal", "Vətən", "Qayalı" mövqeyində döyüşçülərlə maraqlı görüşü oldu. Bizi orada taqım komandiri, leytenant Cəlal Balaməmmədov çox səmimi qarşıladı. Cəlal Şəki şəhərinin Baş Kəldək kəndindəndir. C.Naxçıvanski adına Hərbi liseyi, Heydər Əliyev adına Ali Hərbi Məktəbi, Silahlı Qüvvələrin Təlim və tədris mərkəzindəki zabit ixtisası kursunu bitirmişdir. Hərbçi peşəsinə böyük həvəsi vardır.

Qazax rayonunun Komuna kəndindən olan taqım komandirinin müavini, gizir Tural İsmayılov 2002-ci ildən Milli Ordu sıralarında xidmət edir. Uzun müddət Füzuli rayonunda hərbi xidmətdə olmuşdur. Xidməti borcunun öhdəsindən layiqincə gəlir.

Taqım komandiri C.Balaməmmədov hərbi xidmətdə fərqlənən əsgərlərin barəsində iftixarla söhbət açdı, onların tapşırıqları nümunəvi yerinə yetirmələrindən həvəslə danışdı.

Əsgərlər arasında öz Vətənini, xalqını sevən, torpaqlarımızın keşiyində ayıq-sayıq dayanan gənclər çoxdur. Onlardan manqa komandiri, kiçik çavuş Raciv Kosayev, baş əsgərlər İntiqam Fəttayev, Yasin Cabbarov, əsgərlər Səbuhi Bəndəliyev, Asim Məhərrəmov, Etibar Məmmədov, Süleyman Ömərov, Səbuhi Mehrəliyev xidməti borclarını nümunəvi yerinə yetirməklə, komandanlıq tərəfindən verilən tapşırıqlara layiqincə əməl edirlər.

Əsgərlərlə söhbət etdikcə, döyüş əhval-ruhiyyəsi ilə yaxından tanış olduqca adam sevinir və düşmən üzərində qələbəyə ümidi artır. Bu Vətənə sipər oğullar ana-bacılarımızın qisasını inanırsan ki, yerdə qoymazlar. Xain düşmən ayağı altında inləyən torpaqlarımızı ər oğullarımızın yağılardan azad edəcəklərinə, erməni quduzlarına divan tutacaqlarına adamın şübhəsi qalmır.

19 yaşlı İntiqam Mehdiyev əslən Ağdam rayonundandır. Ağdam işğal olunanda onun 1 yaşı olub. Əsgər yoldaşları bildirdilər ki, İntiqamın çox gözəl səsi var. Asudə vaxtlarında muğamat, segah oxuyur, əsgər yoldaşlarına ruhi qida verir. Mən ondan xahiş etdim ki, İntiqam bizim üçün bir ağız oxusun.

*Könlüm keçir Qarabağdan,*
*Gah bu dağdan, gah o dağdan,*
*Axşamüstü qoy uzaqdan,*
*Havalansın Xanın səsi,*
*Qarabağın şikəstəsi.*

Hamı yerbəyerdən İntiqamı alqışladı, ona əhsən dedilər.

Mən mədəniyyət işçiləri adından əsgərlərimizi Novruz bayramı münasibətilə təbrik etdim, onlara xoş arzularımı bildirdim. Hərbi-vətənpərvərlik ruhunda bir neçə şeirimi oxudum. Milli Ordumuzun möhkəmləndirilməsi, dövlətçiliyimizin qorunması, müstəqilliyimizin inkişaf etdirilməsi üçün respublika prezidenti İlham Əliyevin gördüyü tədbirlərdən söhbət açdım.

Musiqiçilərdən Niyaz Qaracayevin, Novruz Kərimovun, Mustafa Qaracayevin qara zurnada çaldığı "Koroğlu cəngisi", "Misri", "Qəhrəmanı" havaları dağlarda-dərələrdə əks-səda verdi, onların ifa etdikləri el havaları, oyun havaları hərbçilər tərəfindən sevinc və razılıq hissi ilə qarşılandı. Musiqi, çal-çağır Vətənin qartal övladlarını qəhrəmanlığa ruhlandırdı, döyüşə, qisasa, "Cəngi"yə səslədi, onlarda xoş ovqat, gözəl əhval-ruhiyyə yaratdı.

Əsgərlərimizin yanına gedib-gəlməyimizdə Mədəniyyət İşçiləri Müstəqil Həmkarlar İttifaqı Qazax Rayon Komitəsinin sədri İsgəndər Qurbanov, Qaymaqlı kənd bələdiyyəsinin sədri Alı Hüseynov bizə maddi və mənəvi cəhətdən dəstək oldular. Bu qayğı və diqqətə görə hər ikisinə öz minnətdarlığımızı bildiririk.

Qaymaqlı kənd Mədəniyyət evinin və kitabxananın işçilərindən Tükəzban Süleymanova, Xəzanə Mürüdova, Zinyət Bəşirova, Mələk Nəsibova və Akifə Mürüdova əsgərlərlə mehribancasına söhbət etdilər, onlara öz doğma anaları kimi ürək-dirək verdilər, birgə deyib-gülüb, rəqs edib şənləndilər, xatirə şəkli çəkdirdilər. Sürücümüz Zamin Süleymanov Milli Ordunun sıralarından təzəcə ehtiyata buraxılıb. Onun əsgərlərlə söhbəti maraqla qarşılandı.

Bizim Mədəniyyət evinin işçiləri hərbçilər üçün üzqırxan, əl-üz sabunu, ayaqqabı mazı və şotkası, diş pastası və şotkası alıb aparmışdılar. Biz eyni zamanda Novruz bayramı münasibətilə əsgərlərə səmənilərlə bəzədilmiş xonçalar, şirin çörəklər, şirniyyat sovqatı da hədiyyə etdik. Musiqiçilərimizin nəğmə çələngi isə Vətən müdafiəçilərinə ən yaxşı bayram ərməğanı oldu. Əsgər və zabitlər sovqat və maraqlı görüş üçün biz mədəniyyət işçilərinə təşəkkür etdilər.

**Sərhəd bölgəsində möhkəm mövqe tutan əsgər və zabitlərimizdən nikbincəsinə ayrıldıq. Belə qənaətə gəldik ki, əsgərlərimiz demişkən, müharibə tezliklə ədalətin, haqqın qələbəsi ilə başa çatacaqdır. Xalqımızın arzuladığı Qələbə günündə görüşənədək!**

**K. KAZIMOV,**
***Qaymaqlı kənd Mədəniyyət evinin direktoru***